# Rumıniya mediası "Formula-1" Azərbaycan Qran-prisini geniş işıqlandırıb

**Rumıniyanın önəmli xəbər agentlikləri Bakıda keçirilmiş "Formula-1" Azərbaycan Qran-prisini geniş şəkildə işıqlandırıblar.**

AZƏRTAC-ın məlumatına görə, "GSP", "G4media", "Pitstop", AGERPRES xəbər agentlikləri paytaxtımızın 2016-cı ildən "Formula-1" yarışlarına evsahibliyi etdiyini və pilotların Bakı Şəhər Halqasında iki saat ərzində 51 dövrə vurduğunu yazıb. Bildirilib ki, "McLaren" komandasının avstraliyalı pilotu Oskar Piastri bu yarışda birinci yeri tutub, Şarl Lekler ("Ferrari") ikinci, Corc Rassell ("Mercedes") isə üçüncü olub.




Həmçinin 13 sentyabrda keçirilmiş ikinci sərbəst yürüşdə "Ferrari" ilə yarışan monakolu Şarl Leklerin finiş xəttinə digər pilotlardan əvvəl çatdığı bildirilib. Leklerin bir gün əvvəlki sıralama turunda da ən yaxşı nəticəni əldə etdiyi qeyd edilib. Azərbaycanın bu il səkkizinci dəfə "Formula-1" yarışlarına evsahibliyi etdiyi və Bakı Şəhər Halqasının 2026-cı ilə qədər təqvimdə qalacağı vurğulanıb.

Azərbaycan.- 2024.- 18 sentyabr (№203).- S.12.